ISSN: 2181-4341, IMPACT FACTOR ( RESEARCH BIB ) – 7,245, SJIF – 5,431

**Günel Hümmətova (Pəniyeva) Saleh**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi,f.ü.f.dok**
**Mail: gunelpeniyeva@mail.ru**
**Orcid ID:0000-0002-8916-3484**

# AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ HƏMİD ARASLI

**Annotasiya:** Bu məqalədə Həmid Araslı yaradıcılığının ümumi mənzərəsi yaradılmışdır. Tədqiqatda tədqiqatçının əsərləri iki istiqamətdə tədqiq edilmiş və onun yazdığı kitablar sistemli şəkildə müəyyən edilmişdir. "Tərcümeyi-hal və ədəbiyyat tarixi" və "Mətn nəşrləri" istiqamətləri üzrə tədqiqata Həmid Araslının kitablarının siyahısı daxil edilib. Tədqiqatın digər istiqaməti tədqiqatçının əsərlərinin sayı və məzmununun tədqiqi istiqamətində aparılmışdır. Həmid Ərsalinin yazdığı məqalələrin siyahısı ilə yanaşı, kitablarının təxmini siyahısı, redaktorluq etdiyi kitab və məqalələrin ümumi sayı, onların hansı dillərdə yazıldığı da müəyyən edilib. Eyni zamanda, etibarlı ilkin tədqiqat, qiymətli elmi-nəzəri ümumiləşdirmələr Eyni zamanda, etibarlı ilkin tədqiqat, qiymətli elmi nəzəri ümumiləşdirmələr. Eyni zamanda, SSRİ və dünya ədəbiyyatında yanlış təsəvvürlərin geniş yayıldığı bir vaxtda tədqiqatçı Nizami və Füzuli yaradıcılığının tədqiqi istiqamətində tədqiqatlar apararaq, Nizami sənətinin milli ruhuna xüsusi həssaslıqla yanaşaraq, 2000-ci il 20-ci əsrin 20-ci əsrinədək Azərbaycan xalqının ümummilli liderlərindən biri kimi çıxış etmişdir. "Şairin həyatı", "Nizami Gəncəvinin əsərləri" və ayrı-ayrı tədqiqatlarda şairin öz irsinə əsaslanaraq, türkcəsini düşünərək farsca yazdığını elmi dəlillərlə sübut etmişdir. Həmçinin Həmid Araslı öz tədqiqatlarında Nizami sənətinin XII əsr Azərbaycanda təsadüfi hadisə olmadığını vurğulayaraq, Nizaminin ictimai-mədəni tərəqqi ilə xarakterizə olunan əlamətdar bir dövr və mərhələnin böyük şairi olduğunu vurğulamışdır. Onun apardığı araşdırmalardan gəldiyi qənaətlərdən biri də budur ki, Nizaminin Qumlu olması ilə bağlı rəvayət batildir və o, elmi əsası olmayan mövzuları əhatə edən kitab və məqalələrin yer aldığı elmi tədqiqat əsərlərinin siyahısının xülasəsini yaratmışdır.

**Açar sözlər:** Tədqiqat, yaradıcılıq, kitablar, Həmid Araslı, sistemləşdirmə,

**Annotasion:** In this article, a general picture of Hamid Arasli's creativity is created. In the study, the researcher's works were studied in two directions and the books he wrote were identified in a systematic way. The list of Hamid Arasli's books was included in the research in the direction of "Biography and Literary History" and "Text Publications". Another aspect of the research was conducted in the direction of examining the number and content of the researcher's works. Along with the list of articles written by Hamid Arsali, an approximate list of his books, the total number of books and articles he edited, the languages in which they were written have also been determined. At the same time, a reliable preliminary research, valuable scientific- made theoretical generalizations At the same time, a reliable preliminary research, valuable scientific- made theoretical generalizations. At the same time, at a time when misconceptions were widespread in the literature of the USSR and the world, the researcher conducted research in the direction of the study of Nizami and Fuzuli's creativity, and with special sensitivity to the national spirit of Nizami's art, "The Poet's Life", "Nizami Ganjavi's Works" and in separate studies based on the poet's own heritage, his Turkish he thought and gave proof of his writing in Persian with scientific evidence. Also, Hamid Arasli emphasized in his research that Nizami's art was not a random event in the 12th century Azerbaijan, and emphasized that Nizami was a great poet of a remarkable period and stage characterized by social and cultural progress. One of the conclusions he made from his research is that the legend about Nizami being from Qum is false, and he created a summary of the list of

scientific research works, which includes books and articles covering topics that have no scientific basis.

**Keywords:** Research, creativity, books, Hamid Arasli, systemization

Azərbaycan ədəbiyyatı tarixində öz ədəbi tədqiqatları ilə silinməz iz qoyan ədəbiyyatşünaslar var. Həmin ədəbiyyatşünasların istər ədəbi mühitin formalaşmasın da, istər də ədəbi əsərlərin toplanıb bir araya gətirilməsində böyük rolu var. Azərbaycan ədəbiyyatının qədim və orta dövr ədəbi nümunələrinin tədqiqi, klassik irsin nəşri, şifahi xalq yaradıcılığı və orta əsrlər ədəbi əlaqələrinin öyrənilməsi sahəsində böyük xidmətləri olan ədəbiyyatşünas alim Həmid Araslı yaradıcılığına nəzər salsaq görərik ki, onun tədqiqatları Klassik Azərbaycan ədəbiyyatının müasir metodlarla tədqiq edən qabaqcıl alimlər arasında intensivliyi və genişliyi ilə seçilir. “ O, ədəbiyyat tariximizin müxtəlif dövrlərinə dair araşdırmalar yazandan öncə “Kitabi-Dədə Qorqud”dan tutmuş Molla Pənah Vaqifin əsərlərinə qədər yazılı abidələrimizi müqayisəli-tekstoloji cəhətdən araşdıraraq nəşr etdirmişdir. Görkəmli şərqşünas alim Y.E.Bertels hər hansı bir klassik əsərin tədqiqindən öncə onun elmi-tənqidi mətninin hazırlanmasının zəruri olduğunu xüsusi olaraq vurğulamışdır. Mətnşünaslığın təməlini təşkil edən tarixilik prinsipi nəzərə alınmadan görkəmli ədiblərimizin əsərlərinin orijinala yaxın mətnini ortaya çıxarmaq mümkün deyildir. Məlumdur ki, Yaxın və Orta Şərq, o cümlədən, Azərbaycan klassiklərinin əsərlərinin əlyazmaları içində avtoqraf-müəllifin öz xətti ilə yazdığı nüsxə çox azdır.”(5.) Xüsusilə klassik Azərbaycan ədəbiyyatının formalaşması və inkişafı yönümdə Azərbaycan türk ədəbiyyatının Türkiyə, Özbəkistan, Türkmənistan və İrandakı ədəbi cərəyanlarla əlaqələri və qarşılıqlı təsirləri onun bütün həyatı boyu tədqiq etdiyi mövzuların əsasını təşkil etmişdir. Tədqiqatçının elm sahəsində araşdırmaları və mətn nəşrləri xüsusi diqqət çəkir. Beləki, Həmid Araslı illərcə əlyazmalarla məşğul olmaqla yanaşı bir çox nəsr və poeziya jurnallarını əsaslı təmiri ilə də məşqul olmuşdur ki, bu da tədqiqatçının həm elmi fəaliyyətinin inkişafında, həm də ədəbiyyat tarixinin bir salnamə kimi formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Ədəbiyyat sahəsindəki tədqiqatlarında yaşadığı dövrün ictimai-siyasi prosesinin tələbləri də öz izini göstərir. Beləki, “Həmid Araslının yaradıcılığında rəsmi ədəbiyyatdan sovet anlayışı və Stalin dövrünün təzyiqi zaman-zaman özünü hiss etdirirdi” [2.s.591]. Buna baxmayaraq tədqiqatçı bir çox araşdırma və tədqiqatlarında ənənəviliyə meyill etmiş və Azərbaycançılıq ideologiyasının izlərini bu və ya digər şəkildə əks etdirməyə çalışmışdır. Tədqiq etdiyi hər bir mözvunun tarixi köklərinə diqqətlə nəzərdən keçirmiş və elmi əsaslara yiyələnərək araşdırmasılını sonlandırmışdır. Beləki, tədqiqatçı əfsanə və deyimləri deyildə əsas tarixi faktları özünə araşdırma metodu seçərək tarixi-müqaisəli, tarixi-biblioqrafik metod çərçivəsində araşdırmalarını aparmağa önəm vermişdir. Məhz bu yöndəndə əldə etdiyi Həmid Araslı yradıcılıq küllüyatını aşağıdakı kimi sistemləşdirərək siyahılaşdıra bilərik:

1) Həmid Araslının 70-dən artıq dərslikləri, antologiyaları, rus dilində çap olunmuş kitabları və digər əsərləri,
2) 300-dən çox elmi məqalələri. Bunlardan Nizami Gəncəvi yaradıcılığı ilə bağlı apardığı tədqiqatlar nəticəsində dərc etdirdiyi bir neçə məqalələrini misal göstərə bilərik ki, H.Araslının 1939, 24 fevral ayında “Ədəbiyyat” qəzetində dərc elətdirdiyi “Nizami və yaradıcılığı” ,1939-cu ildə “Azərbaycan qadını” jurnalının 10-cu nömrəsində nəşr etdirdiyi “Nizami və qadın obrazları”, 1946-cı ildə Azərbaycan” jurnalının 10 saylı nömrəsində çap etdirdiyi “Nizami. Həyat və yaradıcılığı” məqalələrini nümunə göstərərik;
3) 40-dan çox redaktoru olub çap etdirdiyi kitabları ;
4) 50-dən artıq isə redaktoru olduğu əsərlərinin ümumi mənzərəsini versək səhv etmərik;

Bundan əlavə olaraq Həmid Araslının ədəbiyyat və mətnşünasıqla bağlı əsərlərini iki istiqamətdə ümumiləşdirərək siyahısını versək aşağıdakı kimi qruplaşdırma ala bilərik:

**A) Bioqrafiya və ədəbiyyat tarixi** yönümdən apardığı araşdırma və tədqiqatlarla bağlı nəşr etdirdiyi əsərləri toplum şəklində müəyyənləşdirsək aşağıdakı kimi sistemləşdirə bilərik:

1. Seyfullah Şamil ilə birlikdə hazırladığı kiçik cildlik bioqrafiyası olan

Ələkbər Sabirin həyatı (Bakı 1936).

2. Mirzə Fətəli Axundov (Bakı 1938).

3. Füzuli (Bakı 1939).

4. Nizami Gəncəvinin həyatı ilə bağlı olan "Şairin həyatı" (Bakı 1940).

5. "Şairin həyatı"adlı əsərdən daha həcmli əsəri olan "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı" (Bakı 1947). [3,s.25]

6. "Yaxın Şərq ədəbiyyatında „Leyli və Məcnun" mövzusu" ("Nizami Gəncəvi" almanaxı, I kitab, Bakı, 1940),

7. "Nizaminin müasirləri" (Bakı, 1940), Həmid Araslının bu kitabında Nizami Gəncəvi ilə eyni dövrdə yazıb-yaradan Azərbaycan şairlərindən Əbülüla Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Qivami Mütərrizi, Fələki Şirvani, İzəddin Şirvani, Mücirəddin Beyləqaninin həyat və yaradıcılığı haqqında məlumat, qəzəl və qəsidələrindən nümunələr də öz əksini tapmışdır.

8. "Nizami əsərlərinin el variantları" (Bakı, 1941),

9."Nizami Gəncəvi" (Bakı, 1941),

10. "Yeddi gözəl" və "Yeddi cam" əsərlərinin müqayisəsi haqqında. ("Nizami" almanaxı, III kitab, Bakı, 1941),

11."Nizami və vətən" (Bakı, 1942),

12. "Nizaminin Azərbaycan müaqibləri" ("Nizami Gəncəvi" (Məqalələr məcmuəsi), IV kitab, Bakı, 1947),

13 "Nizami və Azərbaycan xalq ədəbiyyatı" ("Nizami Gəncəvi" (Məqalələr məcmuəsi), IV kitab, Bakı, 1947),

14."Nizami Gəncəvi" (Bakı, 1947) və sair kitab və məqalələrində Nizami Gəncəvinin dövrü, ədəbi mühiti, həyatı və şəxsiyyəti tədqiqat obyektinə çevrildi.[3]

15. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi (Bakı 1956). Kitabıdır ki, burada Həmid Araslı klassik ədəbiyyatla yanaşı xalq ədəbiyyatının da bir çox istiqamətlərindən bəhs etmişdir. Bu kitabda tədqiqatçı Koroğlu dastanının tədqiqinə dair məlumatlarla yanaşı Şah İsmayıl, Âşık Qərib, Əlsi və Kərəm kimi xalq nağılları, Abbas Tufarqanlı, Sarı Aşıq və Sayad Nova kimi aşıqların həyat və yaradıcılıqları ilə bağlı geniş tədqiqat aparmış və həmin aşıqlara aid olan yaradıcılıq nümunələrinin toplanıb bir antologiya şəklində sistemləşdirmiş və həmin məlumatlar haqqında mühüm qiymətləndirmələr aparmışdır.

16. Böyük Azərbaycan Şairi Füzuli (Bakı 1958). Bu kitabda Həmid Araslının Füzulinin həyat və yaradıcılığı haqqında hazırladığı ən geniş araşdırmalarındandır.

17. Aşıq yaradıcılığı (Bakı 1960), kitabında isə Azərbaycan folklor nümunəsi olan aşıq yaradıcılığı haqqında və Azərbaycan aşıqları haqqındakı məlumatları araşdırmış, öz fikir və mülahizələri ilə birgə kitab halında cəmləşdirməklə aşıq yaradıcılığı antologiyasını xatırladan dərin ədəbi xəzinə yaratmışdır. Məhz bu kitabla H.Araslı müasir Azərbaycan folklorşünaslığını yaradan alimlərdən biri kimi də tanınmışdır. Beləki, tədqiqatçı Azərbaycan şifahi xalq ədəbiyyatı və folklorunun tədqiqi sahəsində də böyük əmək sərf edərək "XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi" kitabı və "Aşıq yaradıcılığı" əsərlərin yazmışdır. Bu kitablarda tədqiqatçı Qurbani, Sarı Aşıq, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər və başqa klassik aşıqların həyat və yaradıcılığı, XVII əsrdə yaranan "Əsli və Kərəm", "Aşıq Qərib", "Şah İsmayıl" və "Koroğlu" eposu haqqında orijinal elmi mülahizələr söyləyərək Azərbaycan ədəbiyyatı tarixində həmin nümunələr haqqında möhürlənmiş məlumatlar vermişdir.

Yuxarıda qeyd etdiyimiz əsərlərin bəziləri rus dilində nəşr edilmiş. Buna Həmid Araslının birbaşa rus dilində qələmə aldığı Dədə Qorqud, Füzuli və Tofiq Fikrət haqqındakı əsərlərini misal göstərə bilərik.

Sistemləşdirmə yönümündə apardığımız tədqiqatımızda Həmid Araslının əsərlərinin ikinci qolunu mətn nəşrləri adı altında ümumi mənzərəsini verə bilərik:

**B) Mətn nəşrləri.**

1. Kitabi Dədə Qorqud (Bakı 1939) kitabı. Azərbaycanda “Dədə Qorqud” hekayələrinin latın hərfləri ilə ilk mətn nəşri idi ki, bu nəşr də sovet rejiminin milli dastanları qadağan etmək siyasəti səbəbindən illər boyu qadağan olunmuş kitablar siyahısına daxil olmuşdur. Daha sonra 1978-ci ildə ikinci nəşri nəhayət kiril əlifbası ilə nəşr olundu. “Onun Dədə Qorqud haqqında bəzi fikirləri və mətni fərqli oxuması Orhan Şaik Gökyay ilə müəllif arasında elmi müzakirələrə səbəb olub” [4. s. 293-360].

2. Məhəmməd Füzuli: Onun əsərləri (Bakı 1944-1961). Məhəmməd Füzulinin ardıcıl tədqiqatçısı və Azərbaycandan uzaqlarda tanınan naşiri olaraq şairin həyat və yaradıcılığının müxtəlif problemlərinə həsr etdiyi 20-dən artıq məqaləsi və çoxillik araşdırmalarının yekunu – rus və Azərbaycan dillərində nəşr edilən "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyası da öz genişliyi ilə Füzulinin əsərlərinin elmi üsullarla hazırlanmış beş cildlik toplusudur. Son cildi çap olunmayan bu toplu Həmid Araslının mətn nəşri sahəsində ən mühüm əsərlərindən biridir.

3. Mirzə Fətəli Axundov: Əsərləri (Bakı 1938, 1958). Feyzullah Qasımzadə ilə üç cildlik olaraq planlaşdırılan məcmuənin yalnız birinci cildi nəşr oluna bildi.

4. Molla Pənah Vaqif: Seçilmiş əsərləri (Bakı 1952, 4-cü nəşr 1968).

5. Molla Vəli Vidadi: Əsərləri (Bakı 1957).

6. Qövsi (Kavsi) Təbrizi: Seçilmiş əsərləri (Bakı 1958).

7. Xətai (Şah İsmayıl): Dəhnamə (Bakı 1959).

8. Əlişir Nəvaî: Fərhad və Şirin (Bakı 1968).

Azərbaycanda orta məktəblərdə tədris olunan ədəbiyyat dərsliklərinin yazılmasını gah tək, gah da bir komitə ilə birlikdə öhdəsinə götürən Həmid Araslı 1936 və 1938-ci illərdən başlayaraq orta məktəblərin 5-ci sinifləri üçün hazırladığı "Ədəbiyyat, Ədəbiyyat Müntəğabat"ı, və səkkizinci siniflər üçün hazırladığı Ədəbiyyat, Qədim Ədəbiyyatı.1950-ci ildən uzun müddət dərslik kimi istifadə olunur. Həmid Araslı dövlət dəstəyi ilə müxtəlif komissiyalar tərəfindən hazırlanıb nəşr edilən iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi" (Bakı 1943-1944) və üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (Bakı 1957-1960) əsas müəlliflərindən biridir. Xüsusən də ilk əsərin klassik Azərbaycan ədəbiyyatı bölməsinin böyük bir hissəsi Həmid Araslının tədqiqatı idi. Həmin dövr Azərbaycan şairləri və onların yaradıcılığı, xüsusən də Əli Şir Nəvai haqqında çoxlu məqalələri olan Araslı bəzi şeir və hekayələr də yazmış, uşaqlar üçün ədəbi əsərlərdən tərcümələr və sitatlar da gətirmişdir. (əsərləri haqqında ətraflı məlumat üçün bax: M. İbrahimova, H. M. Araslı: Biblioqrafiya, Bakı 1970).[3,32]

Həmid Araslı tədqiqatının Azərbaycan ədəbiyyatındakı yerindən bəhs etsək Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı mühüm xidmətlərindən birinin də 1960-cı ildə nəşr etdirdiyi üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabıdır ki, burada tədqiqatçı Azərbaycan ədəbiyyatının bütün tarixi dövrlərini tədqiq etmiş və ali məktəblərin filologiya fakültəsində dərslik kimi istifadə edilməkdədir. Həmin çildlərdə Həmid Araslı Türkdilli Azərbaycan ədəbiyyatının təşəkkülündə mühüm rol oynamış Qazi Bürhanəddin, Nəsimi, Kişvəri, Xətai və Füzuli kimi sənətkarların da Azərbaycan ədəbiyyatı tarixindəki yerini müəyyənləşdirərək onların bədii-ictimai fikir tarixinə təsirini araşdırmışdır. Bununla yanaşı tədqiqatçı Azərbaycan şairlərindən İ.Həsənoğlu, Q.Bürhanəddin, İ.Nəsimi, Ş.İ.Xətai, Kişvəri, Həbibi, Füzuli, Qövsi, Saib, Məsihi, Fədai, Vidadi, Vaqif və başqaları haqqında ilkin mötəbər tədqiqat, dəyərli elmi-nəzəri ümumiləşdirmələr aparmışdır. Eyni zamanda tədqiqatçı SSRİ və dünya ədəbiyyatşünaslığında yanlış konsepsiyaların geniş yayıldığı bir zamanda Nizami və Füzuli yaradıcılığının tədqiqi istiqamətində araşdırmalar aparmış və Nizami sənətinin milli ruhuna xüsusi həssaslıqla yanaşaraq "Şairin həyatı", "Nizami Gəncəvi əsərləri" və ayrı-ayrı tədqiqatlarında şairin öz irsinə əsaslanaraq onun türkcə düşünüb farsca yazdığının elmi dəlillərlə sübutunu vermişdir. Həmçinin, Həmid Araslı tədqiqatlarında Nizami sənətinin XII əsr Azərbaycanında təsadüfi hadisə olmadığını vurğulayaraq Nizaminin ictimai-mədəni yüksəlişlə səciyyələnən əlamətdar bir dövr, mərhələnin yetirdiyini böyük bir şair olduğunu vurğulamışdır. Apardığı tədqiqatlardan gəldiyi nəticələrdən biri də Nizaminin Qumdan olması haqqındakı əfsanənin yalnış olduğu fikirdir.

Yekun olaraq qeyd edə bilərik ki, Həmid Araslı yaradıcılığı Azərbaycan ədəbiyyatı və Azərbaycan ədəbiyyatı tarixinin ilk sistemli yaradıcısı olaraq milli ədəbiyyatımızın tarixinin 23 folklordan, el ədəbiyyatından başlanılmasını prinsipinə uyğun şəkildə müəyyənləşdirmişdir. Ədəbiyyatın tarixi inkişaf mərhələlərini isə əsrlər üzrə müəyyənləşdirərək

1. Qədim Azərbaycan ədəbiyyatı (VII-XI əsrlər),
2. XII əsr Azərbaycan ədəbiyyatı,
3. XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatı,
4. XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı,
5. XVIIXVIII əsrlər Azərbaycan ədəbiyyatı dövrlərinə bölərək ümumi Azərbaycan ədəbiyyat tarixinin mənzərəsini yaratmışdır.

Bununla da tədqiqatçının Azərbaycan elminə və ədəbiyyatına verdiyi zəngin, ensklopedik məlumatlar toplusunun bir neçə elmi əsərlərdə birləşdiyini vurğulaya bilərik.

**Ədəbiyyat**

1) Dadaşzadə, Araz. "Həmid Araslı", Fikir Kârvanı, Bakı 1984, s. 285-293
2) Əhmədov, Teymur .Azərbaycan Sovet Yazıçıları, Bakı 1987, s. 591-594.
3) İbrahimova,M. " H. M. Araslı: Biblioqrafiya", Bakı 1970. s. 822
4) Orhan Şaik Gökyay, Destursuz Bağa Girenler, İstanbul 1982, s. 293-360.

ISSN: 2181-4341, IMPACT FACTOR ( RESEARCH BIB ) – 7,245, SJIF – 5,431

5) URL.Kərimov, Paşa. "Akademik Həmid Araslı görkəmli mətnşünas alim kimi", Bakı, 525-ci qəzet, 14.03.19
https://525.az/news/116272-akademik-hemid-arasli-gorkemli-metnsunas-alim-kimi